# “HEYDƏR ƏLİYEV-100:BİBLİOQRAFİK MƏLUMAT KİTABI” ULU ÖNDƏRİN ZƏNGİN İRSİNİN ÖYRƏNİLMƏSİNDƏ ƏN MÜHÜM VASİTƏ KİMİ

**_Solmaz Azay qızı Sadıqova_**

*Tarix üzrə fəlsəfə doktoru, dosent*
*Bakı Dövlət Universiteti,*
*İnformasiya və sənəd menecmenti fakültəsi*
*solmaz_bdu@mail.ru*
*https://orcid.org/ 0000-0003-4780-0163*

***Açar sözlər:*** *Heydər Əliyev-100, biblioqrafik məlumat kitabı, Ulu öndərin zəngin irsi, gənc nəsil, informasiya təminatı*

***Ключевые слова:*** *Гейдар Алиев-100, библиографический справочник, богатое наследие Великого Лидера, молодое поколение, информационное обеспечение*

***Keywords:*** *Heydar Aliyev-100, bibliographic reference book, rich heritage of the Great Leader, younger generation, information support*

**Xülasə:** Dünya səviyyəli siyasi və dövlət xadimi Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının tarixində nadir şəxsiyyətlərdəndir ki, onun zəngin irsi hər zaman tədqiqatçıların diqqət mərkəzindədir. Ümummilli lider Heydər Əliyev irsinin öyrənilməsində informasiya resursları mühüm rol oynayır. Belə biblioqrafik resurslardan biri “Heydər Əliyev-100: Biblioqrafik məlumat kitabı”dır. Biblioqrafik göstərici Ulu öndər Heydər Əliyevin dahiliyini, şəxsiyyətinin bütövlüyünü, yüksək intellektual səviyyəsini, dərin elmi dünyagörüşünü, milli dövlətçilik ideyalarına dönməz sədaqətini, mənəvi zənginliyini dolğun şəkildə əks etdirir. Bununla yanaşı, bu biblioqrafik nəşr bir daha sübut edir ki, dünyanın çox az görkəmli dövlət xadimləri öz elmi-nəzəri əsərlərinin sayına və həcminə görə Ulu öndər Heydər Əliyevlə müqayisə oluna bilər. Məhz, bu cəhətdən də Ümummilli lider Heydər Əliyev fenomenal bir şəxsiyyətdir və sözügedən biblioqrafik məlumat kitabı bu faktın ən bariz nümunəsidir. Müxtəlif elm sahələrində fəaliyyət göstərən alimlər, tədqiqatçılar, müəllimlər, tələbələr və geniş oxucu kütləsi üçün əvəzsiz mənbə olan universal xarakterli “Heydər Əliyev-100: Biblioqrafik məlumat kitabı” bütövlükdə çoxsaylı ziyalılarımızın, xüsusilə gənc nəslin informasiya təminatında mühüm rola malikdir.

**Резюме:** Политический и государственный деятель мирового уровня, великий лидер Гейдар Алиев является одной из редких фигур в истории азербайджанского народа, чье богатое наследие всегда находится в центре внимания исследователей. Информационные ресурсы играют важную роль в изучении наследия общенационального лидера Гейдара Алиева. Одним из таких библиографических ресурсов является «Гейдар Алиев-100: Библиографический справочник». Библиографический указатель в полной мере отражает гениальность великого лидера Гейдара Алиева, цельность его личности, высокий интеллектуальный уровень, глубокое научное мировоззрение, непоколебимую преданность идеям национальной государственности, духовное богатство. В то же время данное библиографическое издание еще раз доказывает, что в мире очень немногие выдающиеся государственные деятели могут сравниться с великим лидером Гейдаром Алиевым по количеству и объему их научно-теоретических трудов. Именно в этом отношении общенациональный лидер Гейдар Алиев является феноменальной личностью, и вышеупомянутый библиографический справочник является ярчайшим примером этого факта. «Гейдар Алиев-100: Библиографический справочник», являющийся бесценным источником для ученых, исследователей, преподавателей, студентов и

широкой аудитории, работающей в различных областях науки, играет важную роль в обеспечении информацией нашей многочисленной интеллигенции, особенно молодого поколения.

**Summary:** World-class political and statesman, great leader Heydar Aliyev is one of the rare figures in the history of the Azerbaijani people, whose rich heritage is always in the spotlight of researchers. Information resources play an important role in studying the heritage of national leader Heydar Aliyev. One of such bibliographic resources is "Heydar Aliyev-100: Bibliographic Reference". The bibliographic index fully reflects the genius of the great leader Heydar Aliyev, the integrity of his personality, high intellectual level, deep scientific worldview, unwavering devotion to the ideas of national statehood, spiritual wealth. At the same time, this bibliographic publication once again proves that very few outstanding statesmen in the world can compare with the great leader Heydar Aliyev in the number and volume of their scientific and theoretical works. It is in this regard that the national leader Heydar Aliyev is a phenomenal personality, and the above-mentioned bibliographic reference book is the most striking example of this fact. "Heydar Aliyev-100: Bibliographic Reference Book", which is an invaluable source for scientists, researchers, teachers, students and the general public working in various fields of science, plays an important role in providing information to our numerous intelligentsia, especially the younger generation.

Məlumdur ki, 2022-ci il sentyabr ayının 29-da Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev Ümummilli lider Heydər Əliyevin 100 illiyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə 2023-cü ilin "Heydər Əliyev ili" elan olunması ilə əlaqədar Sərəncam imzalamışdır. Sözügedən Sərəncam biblioqrafik göstəricinin əvvəlində verilmişdir [2, s.5].

Bakı Dövlət Universiteti Elmi Şurasının 27 oktyabr 2023-cü il tarixli iclasının qərarı ilə (protokol №11) "Heydər Əliyev-100: Biblioqrafik məlumat kitabı" 2024-cü ildə 580 səhifədən ibarət çap olunmuşdur. Kitabın ideya müəllifi Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, tərtib edən tarix üzrə fəlsəfə doktoru, dosent Solmaz Sadıqova, elmi redaktor filologiya üzrə fəlsəfə doktoru, dosent Ələmdar Bayramov, rəyçi Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirovdur [3].

1923-2023-cü illəri əhatə edən belə bir fundamental biblioqrafik göstəricidə materiallar xronoloji ardıcıllıqla verilmişdir. "Heydər Əliyev-100: Biblioqrafik məlumat kitabı" dörd hissə, səkkiz yarımbölmədən ibarətdir. Ulu öndər Heydər Əliyevin Sovet dövründə aldığı orden və medallar, aldığı fəxri adlar, mükafatlar haqqında informasiyanın və 2002-ci ildən 2023-cü ilə qədər haqqında yazılmış dissertasiyaların verilməsi biblioqrafik vəsaitin informasiya tutumunun zənginliyindən xəbər verir.

23062 səhifə və ya 1441,3 çap vərəqi həcmində olan "Müstəqilliyimiz əbədidir" çoxcildliyinin 46 kitabının bir mənbə altında verilməsi (mənbə 157) külliyyatın hər bir kitabının tərkibinin açılması informasiya təminatına xidmət edir [3, s.195]. Biblioqrafik məlumat kitabında ilk dəfədir ki, Ulu öndərin külliyyatı tam şəkildə, yəni 46 cildin hamısı verilmişdir, həm təsviri, həm tərkibi açılmışdır. Ümumiyyətlə, yeni kitabda 1433 adda mənbənin biblioqrafik təsviri verilmişdir. Onlardan 259-u əsərləri, 1174-ü isə haqqında nəşr olunmuş kitablardır.

Fundamental biblioqrafik əsərdə Ulu öndər Heydər Əliyevin təltifləri də verilmişdir. Təltiflər daxildə bir neçə bənddə öz əksini tapmışdır: Məsələn, "Heydər Əliyevin təltif olunduğu SSRİ-nin orden və medalları", "Ulu Öndər Heydər Əliyevin müstəqillik illərində aldığı orden və medallar", "Ulu Öndər Heydər Əliyevin təltif olunduğu fəxri elmi adlar", "Ulu Öndər Heydər Əliyevin təltif olunduğu fəxri adlar, mükafatlar".

1433 mənbənin biblioqrafik təsviri verilmiş sanballı biblioqrafik məlumat kitabının "Ümummilli Lider Heydər Əliyev haqqında" adlanan üçüncü hissəsində səkkiz yarımbölmənin verilməsi onun dəyərini daha da artırır. Bu bölmələr: "Ulu Öndər Heydər Əliyevin böyük həyat yolundan səhi-

fələr", "Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin memarıdır", "Azərbaycanın sosial-iqtisadi inkişafında və Azərbaycan Respublikasının neft strategiyasında Ulu Öndər Heydər Əliyev mərhələsi", "Ümummilli Lider Heydər Əliyev irsində Azərbaycan dili və ədəbiyyatı məsələləri", "Ümummilli Lider Heydər Əliyev və Azərbaycanda elm, təhsil, mədəniyyət və incəsənətin inkişafı", "Ulu Öndər Heydər Əliyev bədii ədəbiyyatda", "Ümummilli Lider Heydər Əliyev və Azərbaycan beynəlxalq aləmdə", "Ümummilli Lider Heydər Əliyev haqqında müdafiə olunmuş dissertasiyalar" adlanır ki, bu da gənclərimizin mənəvi-əxlaqi və vətənpərvərlik tərbiyəsində, Heydər Əliyev irsinin öyrənilməsində mühüm rol oynayır.

Biblioqrafik əsərə iki adda köməkçi aparatın verilməsi ondan istifadəni asanlaşdırmaq məqsədilə yaradılmışdır . *"Bakı Dövlət Universitetinin "Heydər Əliyev İli" ilə bağlı Tədbirlər Planı əsasında hazırlanmış universal xarakterli bu biblioqrafik əsər Ulu öndər Heydər Əliyevin hər kəsə örnək olan həyat və fəaliyyətinin öyrənilməsi, təbliği və eyni zamanda dahi rəhbərin zəngin irsinin tədqiqi üçün qiymətli mənbədir*" [1,s.11].

Ulu öndərin sovet dövründəki, yəni müstəqilliyimizə qədər olan həyat və ictimai fəaliyyətinin salnaməsinin müxtəlif arxiv mənbələrinə müraciət olunmaqla daha geniş verilməsi həmin dövr üçün lazımi informasiyanın əldə edilməsində tədqiqatçılara ən yaxşı töhfədir. Biblioqrafik əsərdə bu sahə xüsusilə nəzərə alınmış, prezidentin həyat və fəaliyyətinin salnaməsi tam olaraq verilmişdir.

Şübhəsiz Ulu öndərin irsinin öyrənilməsində biblioqraik məlumat kitabı çox dəyərli, sanballı informasiya mənbəyi olmaqla istifadəçilərin yararlana biləcəyi əsərdir. Ümid edirik ki, "Heydər Əliyev-100: Biblioqrafik məlumat kitabı" Ulu öndər Heydər Əliyevin zəngin irsinin gələcək nəsillərə çatdırılmasında çox dəyərli və mühüm informasiya vasitəsidir.

**Ədəbiyyat**

1. *Babayev, E.* Ön söz // Heydər Əliyev-100: Biblioqrafik məlumat kitabı / İdeya müəllifi E.Babayev; tərtib edən S.A.Sadıqova; elmi redaktor: Ə. Bayramov; rəyçi K. Tahirov.- Bakı: BDU Nəşr Evi, 2024. -580 s.

2. *Əliyev, İ.* Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı / Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 29 sentyabr 2022-ci il.

3. Heydər Əliyev-100: Biblioqrafik məlumat kitabı / İdeya müəllifi E.Babayev; tərtib edən S.Sadıqova; elmi red.: Ə. Bayramov; rəyçi: K.Tahirov.- Bakı: BDU Nəşr Evi, 2024. -580 s.